*Mehri XANBABAYEVA**

# AKADEMİK YAQUB MAHMUDOV HƏM DƏ İSTEDADLI POLİQRAFİYA USTASIDIR

AMEA Tarix İnstitutunun direktoru akademik Yaqub Mahmudov bu gün nəinki Azərbaycanda, hətta dünyanın əksər ölkələrində görkəmli tarixçi alim, zəngin və çoxşaxəli elmi və ictimai-siyasi fəaliyyəti olan bir insan kimi məşhurdur.

Amma mən bu məşhur insanın çox az adama bəlli olan bir istedadından da danışmaq istəyirəm. Bu onun poliqrafiya məsələləri, kitab nəşri ilə bağlı olan istedadıdır. Yaqub müəllim poliqrafiya və kitab nəşri ilə bağlı məsələləri bu sahə üzrə bir çox mütəxəssisdən yaxşı bilir desəm, fikrimdə yanılmaram.

Mənim Yaqub müəllimlə ilk tanışlığım 2007-ci ilin yazına təsadüf edir. Mən ixtisasca riyaziyyatçı olsam da, öz fənnimlə yanaşı kitab dizaynı işləri ilə də məşğul olurdum. Bizi Yaqub müəllimlə aspiranturada təhsil aldığım dövrdən tanıdığım yaxın dostum, Tarix İnstitutunun əməkdaşı t.ü.f.d. Güntəkin Nəcəfli tanış etmişdi. İlk vaxtlar mən Yaqub müəllimlə Tarix İnstitutunda çap ediləcək kitabların nəşr işləri ilə əlaqədar görüşür və çalışdığım nəşriyyatda institutunun mühüm kitablarının nəşrlərini həyata keçirirdim.

2009-cu ilin noyabrında Yaqub müəllim məni Tarix İnstitutuna çağırıb burada nəşriyyat-poliqrafiya məsələləri ilə bağlı işləməyə dəvət etdi. Mən Tarix İnstitutuna gəldim və burada qeyd etdiyim sahə üzrə çalışmağa başladım. Bu mənim üçün şərəfli olduğu qədər də, olduqca məsuliyyətli bir iş idi.

Hələ 2002-ci ildə Yaqub müəllimin hazırladığı və "Təhsil" nəşriyyatında çap edilən V sinif üçün **"Ata yurdu"** dərsliyi 2004-cü ilin ***"Ən yaxşı dərsliyi"*** adına layiq görülmüşdür. Bundan başqa, Yaqub Mahmudov və Kərim Şükürov tərəfindən hazırlanaraq 2005-ci ildə yenə də həmin nəşriyyatda çapdan çıxmış **"Qarabağ: real tarix, faktlar, sənədlər"** kitabı 2005-ci ildə ***II Beynəlxalq "Kitab sənəti" müsabiqəsində*** ən yüksək bal toplayaraq I yerə layiq görülmüşdür. Bilirdim ki, hər iki kitabın poliqrafiya və dizayn məsələləri Yaqub müəllimin birbaşa iştirakı və tövsiyələri əsasında hazırlanmışdır. Bu səbəbdən də bir az çəkinirdim, Yaqub müəllim kimi tələbkar bir alimlə işləmək, onu razı sala bilməmək həyəcanı vardı içimdə.

Amma tezliklə yanıldığımı anladım. Sən demə, bu itibaxışlı, zəhmli görkəmli, işində olduqca tələbkar insanın təmiz ürəyi, intellektual zəkası, orijinal fikirləri və öyrədən tərəfləri daha çox imiş. Yaqub müəllim Tarix İnstitutunun imzası ilə çapa gedən bütün kitabların elmi dəyəri, məzmunu ilə yanaşı onların tərtibat və dizayn işləri ilə şəxsən özü maraqlanır və öz gərəkli tövsiyələrini verməklə mənə yaxından kömək edirdi.

Həmin vaxtlarda Yaqub müəllim ***"Azərbaycan tarixi ilk mənbələrdə"*** layihəsi adlı mühüm bir layihə ortaya qoydu. Azərbaycan tarixinin xüsusi məqsədlərlə təhrif olunmuş və saxtalaşdırılmış səhifələrinin yenidən yazılması və Azərbaycanın müxtəlif tarixi dövrlərdə itirilmiş torpaqlarının tarixinin araşdırılması Tarix İnstitutunun əməkdaşlarının əsas tədqiqat obyektinə çevrildi. Yaqub müəllim həmin layihə çərçivəsində Azərbaycan tarixi ilə bağlı dünyanın müxtəlif arxivlərində saxlanılan sənədlərin Tarix İnstitutuna gətirilib çap edilməsi imkanını (böyük çətinliklər bahasına) yarada bildi. Moskva, Sankt-Peterburq, Dərbənd, Mahaçqala, Tiflis, Krasnovodsk, İstanbul, Ankara, Paris, London, Berlin, Dehli kimi şəhərlərin arxivlərindən əldə olunan bu sənədlər çoxcildli toplular şəklində hazırlanaraq ilk dəfə işıq üzü gördü.

2010-cu ilin payızında Yaqub müəllim **"Tərcümə və nəşriyyat işi"** şöbəsini yaratdı və bu şöbənin rəhbərliyi mənə həvalə olundu. Tezliklə 20-dən artıq ***irihəcmli sənəd topluları*** *(İstanbul, Ankara, Moskva, Sankt-Peterburq, Berlin, London, Dehli, Tiflis, Mahaçqala və digər şəhərlərin arxivlərindən gətirilmiş materiallar əsasında)*, 30 ildən çox bir müddət ərzində nəşr olunmayan ***"Tarix İnstitutunun Elmi Əsərləri"*** adlı rəsmi jurnal, ***İrəvan xanlığının tarixi ilə bağlı poliqrafik baxımdan çox zəngin tərtibatlı braşürlər,*** konfrans məruzələrinin dərc edildiyi irihəcmli ***"Tarix İnstitutunun Elmi Əsərlərinin Xüsusi Buraxılışı"*** adlı jurnallar və bir çox qiymətli elmi əsərlər nəşr edildi.

Qeyd edim ki, 2013-2018-ci illər arasında Azərbaycanda və Şərqi Anadoluda ermənilərin türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi soyqırımı ilə bağlı Yaqub müəllimin birbaşa təşəbbüsü və təşkilatçılığı ilə beş *(Quba (2013, 2015), Şamaxı (2016), Lənkəran (2017), Qusar (2018)* beynəlxalq elmi konfrans keçirildi. Ən dəyərlisi o idi ki, bu mühüm beynəlxalq konfransların hamısında iştirakçıların məqalələri elə həmin gün – konfrans başlananda ***"Tarix İnstitutunun Elmi Əsərləri"***nin ***"Xüsusi Buraxılışı"*** adlı toplular şəklində onlara paylandı. Dünyanın müxtəlif ölkələrindən Azərbaycana gələn alimlər üçün bu görünməmiş hadisə sayılırdı. Bu konfrans materiallarının çapa hazırlanması prosesində və ən əsası jurnalların üz qabığının poliqrafik baxımdan tərtibatı zamanı Yaqub müəllim hər zaman öz qiymətli fikirləri ilə köməyimə çatır, dəyərli tövsiyələrini verirdi.

12 ildən artıq bir müddətdir ki, mən Yaqub müəllimlə bir yerdə çalışıram.

* **Mehri Xanbabayeva** - Tarix üzrə fəlsəfə doktoru, dosent AMEA A.A.Bakıxanova adına Tarix İnstitutu, şöbə müdiri

Bu illər ərzində Tarix İnstitutunda 100-lərlə fundamental nəşrlərimiz: *Şimali Azərbaycanın soyqırımı həyata keçirilən bütün bölgələrində, o cümlədən Urmiyada (Cənubi Azərbaycan) və Şərqi Anadoluda ermənilərin türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi soyqırımı ilə bağlı; Azərbaycanın itirilmiş tarixi torpaqları; erməni cəlladı, bolşevik şnelinə bürünmüş daşnak Şaumyan haqda araşdırmalar; erməni saxtakarlığı; İrəvan şəhərinin ermənilərə güzəşt edilməsi; ermənilərin saxta tarixi* və s. digər mühüm mövzularla bağlı onlarla nəfis tərtibatlı, illüstrasiyalarla zəngin kitablar o cümlədən, *Azərbaycan Respublikasının müstəqillik dövrünün tarixi* (ikicildlik beş kitabdan ibarət akademik araşdırma) və digər mühüm məsələlər işıq üzü gördü.

Tarix İnstitutunda çalışdığım müddətdə mən həmçinin Yaqub müəllimin savadlı, layiqli kadrlar yetişdirməsinin və şərəfli bir məktəb yaratmasının da şahidi oldum. Yaqub müəllimin ətrafında olan, ən məsuliyyətli işlərdə onunla çiyin-çiyinə çalışan layiqli kadrların əksəriyyəti vaxtilə onun dərs dediyi tələbələridir. Yaqub müəllim öz yetişdirdiyi meyvələri – öz davamçıları ilə işləməyi daha çox sevir. Yaqub müəllimin iş rejimi digərlərindən çox fərqlidir. Çox vaxt rəsmi iş saatı bitdikdən sonra da onun iş masası arxasında çalışdığını görmək mümkündür.

Vaxtilə çəkinə-çəkinə, ehtiyatlanaraq gəldiyim elm ocağında indi mən sevə-sevə və qürur duyaraq çalışıram. Özüm tarixçi olmasam da, artıq illərdir tarixçilərin əhatəsindəyəm. Yaqub müəllim kimi nəhəg bir tarixçinin yanındayam, onun Vətən torpağının hər bir parçasının tarixi üçün nə qədər canı-dildən, yorulmadan çalışdığının canlı şahidiyəm. Və ...özümü onlardan ayrı hiss edə bilmirəm.

Sonda demək istəyirəm ki, nə yaxşı ki, sizlərləyəm, var olun Yaqub müəllim, Allah Sizi qorusun!